**"Təsdiq edirəm"**
**Azərbaycan Dövlət Pedaqoji**
**Universitetinin rektoru**
**______________ professor Cəfər Cəfərov**
**"10" ____09_____ 2019-cu il**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrası haqqında**
**ƏSASNAMƏ**

1. Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrası ADPU-nun İbtidai təhsil fakültəsinin əsas tədris - elm struktur bölmələrindən biri olub, gələcək ibtidai sinif müəllimlərinin riyaziyyatdan elmi - pedaqoji hazırlığı ilə əlaqədar fənlər üzrə tədris - metodiki, elmi - tədqiqat, elmi - pedaqoji işlərin həyata keçirilməsini təmin edir.

2. Kafedra - Azərbaycan Respublikası qanunvericiliyinə, Təhsil Qanununa, Azərbaycan Respublikası Təhsil Nazirliyinin normativ hüquqi aktlarına, təlimat və metodiki göstərişlərinə, qüvvədə olan digər qanunvericilik aktlarına, Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsinə, ADPU - nun Nizamnaməsinə, ali təhsil müəssisəsinin professor - müəllim heyətinin vəzifələrə seçilməsi və attestasiyası qaydalarına və bu əsasnaməyə uyğun olaraq formalaşdırılır və fəaliyyət göstərir.

3. Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrasına ümumi rəhbərlik, bir qayda olaraq uyğun ixtisas üzrə elmlər doktoru elmi dərəcəsi, professor və ya fəlsəfə doktoru elmi dərəcəsi və dosent elmi adı olan kafedra müdiri tərəfindən həyata keçirilir.

4. Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrasının kollektiv idarəetmə orqanı onun iclasında öz səlahiyyətlərini həyata keçirən kafedra kollektividir. Kafedra iclaslarının tərkibi müzakirə olunacaq məsələlərə əsasən müəyyən edilir. Kafedra iclasları ayda bir dəfədən az olmayaraq (məzuniyyət dövrü istisna olunmaqla) çağırılır.

5. Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrasının tərkibinə kafedra müdiri, professorlar, dosentlər, baş müəllim və doktorantlar və digər kateqoriyadan olan işçilər daxildir.

6. Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrasının əsas vəzifələri:

- bütün təhsil formaları üçün planlarında nəzərdə tutulmuş məşğələlərin, mühazirələrin, laboratoriya, praktik məşğələ, seminar və digər dərslərin elmi-metodik cəhətdən yüksək səviyyədə aparılmasını təmin etmək;
- kurs və buraxılış işlərinə, pedaqoji, elmi-pedaqoji, elmi-tədqiqat təcrübələrinə, tələbələrin fərdi işlərinə rəhbərlik etmək;
- cari imtahanların təşkili və aralıq yoxlamaların keçirilməsini təmin etmək;
- dövlət imtahanlarının təşkilində və keçirilməsində fəal iştirak etmək;
- təhsil alanlar arasında fəal vətəndaş mövqeyinin formalaşması işində iştirak etmək;
- kafedrada tədris edilən fənlər üzrə tədris proqramının işlənib hazırlanmasını, müvafiq qaydada təsdiq edilmək üçün təqdim olunmasını təşkil etmək, digər kafedraların hazırladığı tədris proqramlarına rəy vermək;
- dərslik, dərs vəsaiti, metodiki və təlimat, göstəriş, əyani vəsait və s. hazırlanmasını təmin etmək, rektorluğun (fakültənin) göstərişi ilə dərslik, dərs vəsaiti və tədris - metodiki ədəbiyyata rəy vermək;
- elmi - tədqiqat işlərinin aparılmasını təşkil etmək, dissertantların, doktorantların və tələbələrin elmi - tədqiqat işlərinə rəhbərlik etmək;

- tamamlanmış elmi - tədqiqat işlərinin müzakirəsini təşkil etmək, onların istehsalatda tətbiq edilməsi və ya nəşr edilməsi üçün rəy vermək;

- kafedra əməkdaşlarının tədris, elmi - metodiki və digər işlərinin fərdi planlarının tərtib olunmasını və onların icrasını təmin etmək;

- universitetin, respublikanın və xarici ölkə ali məktəblərinin pedaqoqlarının qabaqcıl iş təcrübəsinin öyrənilməsini və yayılmasını təşkil etmək;

- tədris prosesində müasir texniki vəsaitlərdən, yeni metodlardan istifadə edilməsinə dair tədbirlər hazırlayıb həyata keçirmək;

- elmi - pedaqoji və elmi kadrların hazırlanması üçün tələbələrlə, dissertantlarla və doktorantlarla işi təşkil etmək;

- kafedra əməkdaşlarının dissertasiyasının yüksək səviyyədə hazırlanmasına kömək etmək, həmçinin rektorluğun (fakültənin) tapşırığına əsasən digər iddiaçıların dissertasiyalarını müzakirə edib rəy vermək;

- müasir texnologyaların tətbiqi üzrə qabaqcıl təcrübənin öyrədilməsi və yeni iş metodlarının tədrisə tətbiq edilməsi məqsədi ilə müxtəlif müəssisə və təşkilatlarla əməkdaşlığı təmin etmək, qarşılıqlı faydalı əlaqələri genişləndirmək;

- tədris sahəsində çalışan mütəxəssislərin ixtisaslarının artırılmasına köməklik göstərmək, araşdırmalar aparmaq, proqramlar və təkliflər hazırlamaq;

- fakültənin bakalavr, kafedranın magistr və doktorant məzunları ilə daim əlaqələri təmin etmək;

- elmi biliklərin təbliğini təşkil etmək.

7. Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrası ən azı 5 professor - müəllim (o cümlədən, 3 nəfər elmi dərəcəyə malik) olduqda yaradılır. Kafedranın illik tədris yükü 3,0 min saatdan az olmamalıdır.

8. Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrasının iclaslarına digər ali məktəblərin, elmi - tədqiqat institutlarının, müəssisə və təşkilatların işçiləri də dəvət oluna bilər.

9. Kafedra iclaslarında aşağıdakı məsələlər müzakirə və təsdiq edilir:

- Kafedranın bütün fəaliyyət növləri üzrə, eyni zamanda müəllimlərin, elmi, tədris - yardımçı heyətin, aspirantların, staj keçənlərin və fərdi planla təhsil alan tələbələrin plan və hesabatları;
- Kafedra tərəfindən tədris olunan kurslar üzrə tədris vasitələri, proqramlar, imtahan materialları;
- Müəllimlərin tədris yükü və tədris yükünün bölünməsi;
- Kafedra tərəfindən təşkil edilən seminarların, konfransların, sərgilərin və s. tematikası;
- Kurs və buraxılış işlərinin tematikası, rəhbərlərin və rəy verənlərin təyini, layihələrin müdafiəyə buraxılması;
- Elmi və metodiki işlərin nəşr olunma qaydalarına dair təqdimatların verilməsi;
- Kafedra müdirlərinin müavinlərinin namizədliyi;
- Öz səlahiyyətləri daxilində xarici ölkələrə, staj keçməyə və ixtisasartırma fakültələrinə ezam etmək, doktoranturaya keçirmək, yaradıcılıq məzuniyyətləri vermək;
- Öz səlahiyyətləri daxilində sərəncamda olan və ya məqsədli ayrılmış vəsaitin tədris, elm və sosial tələblərə xərclənməsi.

10. Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrası qarşısında duran vəzifələri yerinə yetirmək üçün öz səlahiyyətləri daxilində digər məsələləri də müzakirə edib mavafiq qərar çıxara bilər. Kafedra iclasında qəbul olunan qərarlar barədə fakültənin elmi şurasına, zərurət olduqda isə ali məktəb rektorluğuna və Elmi Şurasına məlumat verilir.

11. Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrasının iclaslarında aşağıdakı məsələlər barədə təklif, tövsiyə və ya təqdimat qəbul edilir:

- kafedra müdirinin seçilməsi;

- müəllim və elmi işçilərin işə qəbulu, onlarla müqavilə bağlanması, mövcud əsasnaməyə uyğun onlara vəzifə maaşı və əlavələrin təyin olunması;

- magistraturaya, doktorantuaya qəbul və iddiaçıların kafedraya təhkim olunması;

- dissertasiyaların müdafiəyə qəbul edilməsi;

- universitet və ya fakültə tərəfindən elmi və tədris – metodiki əsərlərin nəşri;

- tələbələrin müəyyən fənlər üzrə fərdi planla təhsilə keçirilməsi;

- işçilərin və təhsil alanların həvəsləndirilməsi və ya cəzalandırılması;

- kafedraların müəllimlərinin, elmi işçilərin və digər əməkdaşların tutduqları vəzifədən kənar edilməsi;

- digər təkliflər.

12. Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrasının iclaslarında qərarlar açıq və ya gizli səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Tədris - metodiki məsələlərin və kafedra əməkdaşlarının işə qəbul olunanlar haqqında təqdimatların müzakirəsi zamanı tədris - tərbiyə prosesində şəxsən iştirak edən kafedra üzvləri həlledici səsə malikdirlər. Qərarlar qəbul edilərkən kafedra üzvlərindən birinin təklifi ilə gizli səsvermə aparıla bilər.

13. Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrasının müdiri:

- kafedra iclaslarına sədrlik edir, onların qərarlarını təsdiq edir;

- hər il kafedranın fəaliyyəti barədə hesabat təqdim edir;

- kafedranın işini planlaşdırır və təşkil edir;

- kafedranın illik tədris yükünə əsasən kafedranın ştat tərkibini təklif edir;

- fakültədə, ali məktəbdə, kənar təşkilatlarda kafedralarını təmsil edir;

- kafedra müdirlərinin müavinləri vəzifələrinə nümayəndələr təklif edir.

14. Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrasının müdirlərinin müxtəlif sahələr üzrə (tədris, elm, tərbiyə və s.) müavinləri mövcud qaydad seçilir.

15. Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrası mövcuq qaydada ADPU-nun Elmi Şurasının təqdimatına əsasən rektorun əmri ilə yaradılır və ləğv edilir.

16. Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrasının professor – müəllim və elmi heyətinin vəzifələrə seçilməsi bir qayda olaraq mövcud əsasnaməyə uyğun müsabiqə yolu ilə həyata keçirilir.

17. Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrasının kargüzarlığı mövcud qaydada təsdiq edilmiş nomenklaturaya uyğun olaraq aparılır.

18. Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrasının və onun tərkibindəki digər struktur qurumların Əsasnaməsi, bu Əsasnaməyə uyğun olaraq hazırlanır və ADPU-nun Elmi Şurası tərəfindən təsdiq edilir.

Bu əsasnamə Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedranın "5" "sentyabr" 2019-cu il tarixli iclasında (1 №-li protokol) müzakirə edilmişdir.

**Kafedra müdiri:____________________dos.S.C.Tağıyeva**

Bu əsasnamə İbtidai təhsil fakültəsi Elmi Şurasının "10" "sentyabr" 2019-cu il tarixli (1 №-li protokol) iclasında bəyənilmişdir.

**İbtidai təhsil fakültəsinin**
**dekanı:_______________________________prof.F.A.Rüstəmov**